# Azərbaycan və Gürcüstan Basketbol federasiyalarının nümayəndələri arasında görüş

## Basketbol idman növünün inkişafı və mümkün əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb, gələcəkdə birgə görüləcək işlərdən danışılıb





Aprelin 5-də Azərbaycan Basketbol Federasiyasının prezidenti Emin Əmrullayev ölkəmizdə səfərdə olan Gürcüstan Basketbol Federasiyasının prezidenti Viktor Sanikidze ilə görüşüb.

Görüşdən əvvəl Fəxri xiyaban ziyarət olunaraq ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarları önünə əklil və gül dəstələri qoyulub. Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə güllər düzülüb.

Daha sonra federasiyaların məsul şəxslərinin iştirak etdiyi görüşdə basketbol idman növünün inkişafı və mümkün əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb, gələcəkdə birgə görüləcək işlərdən danışılıb.